Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 3-4 (7619-7620) 1933-cü ildən nəşr olunur Cümə axşamı, 28 yanvar 2021-ci il.

qebele-ih.gov.az
gabalanews@mail.ru

# Hökumət bu il görüləcək işləri və hədəfləri dəqiqləşdirdi



Prezident İlham ƏLİYEV: "Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır"

2021-ci ildə görüləcək işlər çoxdur. Bunlar Prezidentimizin vurğuladığı kimi, həm ənənəvi, yeni dövlət investisiya proqramında təsbit olunmuş, həm də azad edilmiş ərazilərdə görüləcək işlərdir. Bununla belə əsas diqqət azad edilmiş torpaqlara yönəldilir və bu sahədə ilkin infrastruktur layihələrinin icrasına artıq başlanıb.

Nazirlər Kabinetinin Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirəsində də 2021-ci ildə görüləcək əsas işlər, qarşıya qoyulan başlıca vəzifələr barədə söhbət getmişdir. Belə ki, Prezident

İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı tərəfindən verilən tapşırıqların icrası və qarşıda duran hədəflərə nail olunması əsas fəaliyyət proqramıdır. Nazirlər Kabinetinin müşavirəsində də məhz Prezidentin tapşırıqları əsasında növbəti il üçün müəyyənləşdirilmiş prioritetlər səsləndirilmişdir.

Qeyd edilmişdir ki, dövlət başçısının tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanır. Bütün ərazilərin və şəhərlərin bərpası vahid konsepsiya əsasında həyata keçiriləcək.

Düşmənin dağıdıb yerlə yeksan etdiyi şəhər və kəndlərimzin hamısını yenidən tikib-quracaq, həmin ərazilərdə ən müasir infrastruktur yaradacağıq. İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınacaq. Yeni beynəlxalq hava limanlarının, avtomobil və dəmir yolu xətlərinin tikintisi bölgənin inkişafına əhəmiyyətli təkan verəcək.

Məlum olduğu kimi, Əhmədbəyli - Alxanlı - Füzuli - Şuşa yolu artıq çəkilir. Digər vacib bir layihəyə də start verilib ki, bu, Toğanalı - Kəlbəcər yoludur. Həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat infrastrukturu yaradılacaq. Horadiz - Füzuli, daha sonra Füzuli - Şuşa dəmir yolunun tikintisi nəzərdə tutulur. Laçın və Kəlbəcər rayonlarının birində müasir beynəlxalq hava limanı tikiləcək, hazırda bunun üçün yer axtarılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfər çərçivəsində Füzuli şəhərində tikilən beynəlxalq hava limanının təməlini qoyublar. Beləliklə, yaxın gələcəkdə Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər.

Xarici qonaqlar demişkən, qarşıda duran prioritetlərdən biri də Qarabağ bölgəsinin turizm marşrutlarının işlənib hazırlanmasıdır. Bu bölgənin zəngin turizm potensialı var. Qarabağın füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri onu Azərbaycanın əsas turizm zonalarından birinə çevirəcək.

İşğaldan azad olunmuş ərazilərdə torpağın münbitliyi orada bağçılığın, tərəvəzçiliyin, üzümçülük və taxılçılıq sahələrinin inkişafına geniş imkanlar yaradır. Qarabağ camaatının heyvandarlığın inkişaf etdirilməsi üçün də zəngin təcrübəsi var. Odur ki, prioritetlər sırasında bu sahələr də özünə yer alır.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar işlənib hazırlanmalıdır. Bütün ölkədə olduğu kimi, işğaldan azad edilmiş torpaqlarda da su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Həmin torpaqlarda ən müasir suvarma sistemləri yaradılmalıdır. Su ehtiyatları ilə bağlı problemlərin həlli ilə yanaşı, azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi nəzərdən keçirilməlidir. Bu ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanlarına baxılmalıdır.

İndi biz Böyük Qayıdışa hazırlaşırıq. İllərdir məcburi köçkün olan insanlar öz dədə-baba yurdlarına qaytarılacaq və bu proses xüsusi proqram əsasında həyata keçiriləcək. Odur ki, işğaldan azad olunmuş ərazilərin bərpası məsələləri dövlət orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə fəaliyyətində prioritet təşkil etməli, cari və perspektiv işlər planları ilə əlaqələndirilməlidir.

Bütün bunlarla yanaşı, ölkəmiz cari ildə iqtisadi artımın bərpa edilməsinə nail olmalıdır. İnflyasiya meyillərinin qarşısı alınmalı, valyuta ehtiyatları səmərəli idarə edilməlidir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi, bu istiqamətdə proqramların davam etdirilməsi, ixrac imkanlarının genişləndirilməsi yenə də gündəmdədir. Özəl sektorun investisiya layihələrinin maliyyələşdirilməsinə cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığının təşviqinin davamı, dövlət investisiya layihələrinin səmərəliliyinin təhlil olunması və sosial-iqtisadi sahələrə aid bir çox digər məsələlər prioritet vəzifələr sırasındadır.

İndi biz həmçinin postpandemiya dövrünə ciddi hazırlıq işləri görməli, orta və uzunmüddətli hədəflərimizi bir daha dəqiqləşdirməliyik.

Ölkəmizdə keçən il start verilmiş, lakin məlum səbəblərdən tam həcmdə tətbiq edilməmiş İcbari Tibbi Sığorta sistemi bu il iki mərhələdə həyata keçirilməlidir. “Nizami Gəncəvi ili”nin məzmunlu keçirilməsi üçün müvafiq fəaliyyət planı hazırlanmalıdır.

Bütün bunlarla və digər prioritetlərlə bağlı Prezident İlham Əliyev Nazirlər Kabinetinə müvafiq tapşırıqlar vermişdir. Dövlət başçısının dediyi kimi, planlarımız böyükdür: “Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir.”

**“Azərbaycan”**